BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2015

## JURNALİSTİKA

UOT 316.77:001.12/.18; 070:001.12/18

# İNSAN AZADLIQLARI: DİNLƏRARASI VƏ KİV-LƏRARASI MÜNAQİŞƏLƏR

**İ.A.MAZANLI**
***Bakı Dövlət Universiteti***
***micenteraz@hotmail.com***

*Məqalədə Qərb ölkələrinin KİV-lərində Məhəmməd Peyğəmbərin karikaturalarının və bununla əlaqədar çap olunmuş materialların təhlili əsasında KİV-in dövlətlərarası və dinlərarası münasibətlər sahəsində ikili (struktiv və destruktiv) rolu nəzərdən keçirilir. Müəllif KİV-in bu sahədə fəaliyyətinin təkmilləşdirilməsi üçün bir sıra elmi və praktik tövsiyələr təklif edir.*

***Açar sözlər:*** *Peyğəmbər, din, karikatura, dövlətlərarası, dinlərarası, münasibət, KİV*

Müasir dövrdə insan hüquqlarının, xüsusilə də fikir, vicdan, din azadlığı və sərbəst hərəkət etmək hüququnun aliliyi beynəlxalq həyat məsələlərinin palitrasını xeyli genişləndirmişdir [2,3]. Şəxsin xaricdə yaşayan qohumlarına qovuşması (ailə birləşməsi), təhsil alması və ya bizneslə məşğul olması, uşağın başqa ölkənin vətəndaşları tərəfindən övladlığa götürülməsi, bir ölkənin vətəndaşlarının başqa bir ölkəyə səfəri, müxtəlif ölkələrin vətəndaşları arasında nikahın baglanması, şəxsin öz ölkəsində başqa ölkədə istehsal olunmuş bahalı mal alması (mebel, avtomobil və s. qiymətli əşyalar) və s., məsələlər artıq beynəlxalq münasibətlər sahəsinə aid edilir. Sadaladığımız bu misallar cəmiyyətdaxili və beynəlxalq münasibətlər arasındakı sərhədlərin müəyyən edilməsinə də bir sıra yeni korrektələr etmişdir.

Bununla əlaqədar olaraq, "beynəlxalq münasibətlər" anlayışının spesifikasının özünü məhz nədə ifadə etməsi haqqında bəzi məqamlar hələ özünün aydın-lığını tam tapmamışdır. Əsasən Qərb, qismən də Rusiya elmində və KİV-lərində formalaşdırılmış "sosial, iqtisadi və siyasi qüvvələr", "beynəlxalq terrorizm", "vəhhabilik" və s. anlayışların arxasında gizlənən siluetlər də mücərrədlikdən uzaq deyildir. "Xalqların bərabərliyi və özünümüəyyənetmə hüququ", "beynəlxalq arena", "fikir, vicdan və din azadlığı" və s. anlayışlar-

dakı "sürüşgənlik" də bu ifadələrin müxtəlif tərəflərin öz xeyirlərinə istifadə etmələrinə şərait yaradır.

Bəzi tədqiqatçılar "beynəlxalq münasibətləri ... beynəlxalq aləmdə ... həyata keçirilən siyasi, iqtisadi, ideoloji, mənəvi, diplomatik və başqa əlaqələrin" [1, 20], "insan cəmiyyətini formalaşdıran inteqrasiyanın" məcmusu, dövlətləri isə beynəlxalq münasibətlərin əsas aktorları [5] kimi xarakterizə edirlər.

Mütəxəssislərdən bir qrupu beynəlxalq inteqrasiya prosesini beynəlxalq münasibətlərə ciddi təsir göstərən, vahid daxili və xarici siyasət strategiyasını formalaşdıran amil kimi nəzərdən keçirir, mərkəzdənqaçma meyllərinin, etnik separatizmin, davakar millətçiliyin və dini ayrı-seçkilik hisslərinin yüksəldiyini müasir dünya siyasətinin reallığı kimi qəbul edir [1, 133].

Tədqiqatçılardan bəziləri isə "beynəlxalq münasibətləri siyasi vahidlər arasındakı münasibətlər" kimi xarakterizə edir, onun insanlar və dövlətlər arasındakı münasibətlərdən ibarət olduğunu göstərir [8, 17] və bu münasibətlərin əksər hallarda qaydasız döyüşə çevrildiyini bildirirlər [8, 22].

Beynəlxalq münasibətlərdə siniflərin, sosial-iqtisadi qrupların və siyasi qüvvələrin əsas rol oynadığını [9], beynəlxalq münasibətlərin bütün iştirakçılarının davranışının öyrənilməsinin vacibliyini vurğulayan, onların rolunun artması ilə əlaqədar prioritetlərin yaranmasını yolverilməz hesab edən tədqiqatçılar da vardır [10].

Zənnimizcə, "anlayışlar hər şeyi əhatə etməlidir" iddiasında olmaq da düzgün deyildir. Heç bir definisiya müəyyən obyektin məzmununu tam açmaq iqtidarında olmur. Xüsusilə də yeni informasiya texnologiyalarının sürətli inkişafı və onların KİV-ə tətbiqi yeni anlayışların yaranma sürətini və adekvat əhatəliliyini xeyli qabaqlayır.

Beləliklə, beynəlxalq problemlərin tənzimlənməsinə və həllinə göstərilən fərqli münasibətlər cəmiyyətin aparıcı sosial-siyasi institutlarından biri olan KİV-in sözügedən problemlərin işıqlandırılmasında və müvafiq olaraq təkmilləşdirilməsində ikili – a) struktiv (qurucu) və ya b) destruktiv (dağıdıcı) rol oynadığını anlaşıqlı edir.

Müasir dövrdə beynəlxalq münasibətlərin iştirakçılarının rollarının öyrənilməsi bir neçə aspektdən, o cümlədən KİV-in beynəlxalq münasibətlərdə iştirakı praktikasının təhlili, onların yerinin və rolunun müəyyən edilməsi baxımından da müəyyən əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, KİV-in, xüsusilə də internet KİV-nin, o cümlədən sosial medianın beynəlxalq münasibətlərin mülayimləşməsində və ya əksinə, gərginləşməsində "çəkiləri" və verdikləri "töhfələr" heç də az deyildir.

Beləliklə, KİV-in beynəlxalq münasibətlərin təkmilləşməsində iştirakı barədə elmi polemika aparmaq mümkündür. Həmçinin hesab edirik ki, KİV-lər arasındakı əməkdaşlıq əlaqələrinin beynəlxalq münasibətlərin təsnifatına daxil edilməsi də məqsədəmüvafiq olardı. Bunu deməyə bizə - a) KİV-in beynəlxalq münasibətlərin təkmilləşməsində mühüm rol oynaması (qurucu və ya dağıdıcı faktor kimi); b) dövlətlər arasında ikitərəfli və çoxtərəfli danışıq-

larda və razılaşmalarda tərəfləri təmsil edən KİV-lər arasında əməkdaşlıq haqqında ayrıca maddələrin olması; c) beynəlxalq təşkilatların egidası altında keçirilən nüfuzlu tədbirlərdə, sammitlərdə müzakirə olunan məsələlərin icrası ilə əlaqədar ölkələrin öz üzərlərinə götürdükləri öhdəliklər sırasına sözügedən sahədə KİV-in səmərəli fəaliyyət göstərməsi üçün lazımi şəraitin yaradılması, jurnalistlərin, xüsusilə də əcnəbi jurnalistlərin imtiyazları və mühafizəsi, onlara münasibətdə beynəlxaq humanitar hüququn tətbiq edilməsi ilə bağlı öhdəliyin də daxil edilməsi və s. faktlar əsas verir [2, 105-156].

Göründüyü kimi, beynəlxalq münasibətlərin təsnifatına nəzər yetirmək intersosial palitranın bir-biri ilə uyuşmayan çoxsaylı rənglərdən və ziddiyyətli çalarlardan ibarət olduğunu dərk etmək üçün kifayət edir. Əgər biz yalnız son 20-30 il zaman kəsiyini götürsək, əsasında guya **dinin - islam faktorunun** dayandığı Azərbaycan - Ermənistan, Çeçenistan - Rusiya münaqişələrinin (Ermənistan və Rusiya KİV-ləri bu amili xüsusi "yaradıcılıqla" təbliğ edirlər) şahidi oluruq. Eyni zamanda, SSRİ - Əfqanıstan, ABŞ - Əfqanıstan, ABŞ - İraq, faktiki iştirakı olmasa da, ABŞ - Liviya, ABŞ - Suriya, bir qədər əvvəl serblərlə albanlar arasında baş vermiş münaqişələri də islamla bağlayanlar az deyildir. Bir qədər də keçmişə qayıtsaq, ABŞ-la Vyetnam, Yaponiya, İndoneziya, Panama, Honduras və s. ölkələrlə münaqişələri təfərrüatı ilə yadımıza sala bilərik. Rusiya ilə Gürcüstan və Rusiya ilə Ukrayna arasındakı (hər üçü xristianlığın pravoslav məzhəbinə aiddir) silahlı münaqişələr isə gözlərimizin önündə baş verir. Əgər biz də millətlər və dövlətlər arasındakı münaqişələrin səbəbini dini amillərlə izah etməyə başlasaq, eyni ənənədən çıxış edərək, onları avropa bütpərəstliyi və katolosizmi, rus şovinizmi ilə əlaqələndirmək haqqına malikik. Eyni fikri Qərb mətbuatının "islam fundamentalizmi" anlayışı ətrafında formalaşdırdığı neqativ rəy barədə də demək mümkündür. Hər bir təlimin (din təlimdir) söykəndiyi fundament (lat. *fundamentum* – özül, təməl) vardır. Təməli, əsası olmayan hər bir şey, o cümlədən, təlim də məhvə məhkumdur. Xristianlığın protestantlıq teologiyasının cərəyanlarından biri olan fundamentalizm köhnəlmiş dini anlayışların tənqidi cəhətdən yenidən baxılmasının əleyhinə çıxış edir. Ümmiyyətlə, dinlərdə ortodoksiyanın tərəfdarlarını fundamentalistlər adlandırırlar. Necə ola bilərki, eyni tələblər irəli sürənlər, eyni mövqe nümayiş etdirənlər - xristian dinindəki ortodokslar "sivil", islamdakılar isə "varvar" olsunlar?

Dinlərarası münaqişələr KİV-lərarası müharibələrə gətirib çıxarır həmişə. Qərbi Avropa KİV-lərində vaxtaşırı Məhəmməd Peyğəmbərin karikaturalarının yerləşdirilməsi, islam əleyhinə yazıların verilməsi qərbsayağı söz, ifadə və əqidə azadlığı kimi deyil, 2 milyard insanın (Yer kürəsi əhalisinin təxminən 25 %-ni təşkil edir) şərəf və ləyaqətinin təhqir edilməsi kimi, əqidə və inamına hörmətsizlik kimi qiymətləndirilməlidir və varvarlığa daha çox uyğun gəlir.

Qərb mətbuatının islama qarşı sonuncu "səlib yürüşünü" izləsək, onların bu kampaniya və kompaniyada xüsusi fəallığının və geniş coğrafiyasının şahidi oluruq [6]. İlk dəfə Danimarkanın "**Jyllands-Posten**" qəzeti (ingilis dilində çap

olunur – **İ.M.**) Məhəmməd Peyğəmbərin 12 karikaturasını 2005-ci il 30 sentyabr tarixli sayında özünüsenzura və söz azadlığı haqqında məqaləyə illüstrativ əlavələr kimi çap edir.

2006-cı il fevralın 9-da Volqoqradın (Rusiya) «Городские вести» qəzeti "İrqçilərə hakimiyyətdə yer yoxdur" məqaləsini çap edir. Məqaləni müşayiət edən illüstrasiya materialında yəhudi, xristian və islam dininin peyğəmbərlərinin Buddanın ətrafına toplaşıb silahlı münaqişələri pislədikləri mənzərə təsvir edilir.

Belorusda çıxan «Згода» qəzeti 2006-cı il 18-26 fevral tarixli sayında çap olunuş «Палітычны крэатыў» ("Siyasi kreativ") başlıqlı məqaləyə "**Jyllands-Posten**" qəzetinin 2005-ci ilin sentyabrında Məhəmməd Peyğəmbərin çap etdyi karikaturalarını illüstrasiya kimi əlavə edir.

2007-ci ilin avqustunda İsveçin **"Nerikes Allehanda"** qəzeti insanların əqidə azadlığı hüququna "hörmət"də daha uzağa gedir və Peyğəmbərin başının it bədəni üstündə təsvirini yaradan karikatura çap edir. Qəzet özünün insanlığa ləkə gətirən bu addımını ölkə qalereyalarının rəssam Lars Uilksin işlərini sərgilərə çxarmaqdan imtina etdirdiklərinə görə ona dəstək mənasında və "söz və məzhəb azadlığının İcveç üçün boş, mənasız" bir şey olmadığını sübuta yetirmək məqsədilə etdiyini bildirir.

2008-ci ildə Avropada İslama qarşı media hücumları yeni vüsət almağa başlayır. Fevral ayının 16-da Danimarkada çıxan beş qəzet Məhəmməd Peyğəmbərin bombaya oxşayan əmmamə ilə təsvirini çap edir. **"Berlingske Tidende"** qəzeti özünün bu "coşqunluğunu" "söz azadlığını dəstəklə" izah edir və bunu gələcəkdə də edəcəklərini bildirir. Daha sonrakı illərdə Danimarkanın **"Politiken"** jurnalı, İspaniyanın **"El Jueves"** jurnalı, Fransanın həftəlik satirik "**Charlie Hebdo"** jurnalı da qitənin digər KİV-lərilə həmrəylik nümayiş etdirərək Məhəmməd Peyğəmbərin karikaturalarını çap edirlər (18 sentyabr 2012).

Almaniyanın Berlin və Brandenburq federal torpaqlarının ali inzibati məhkəməsi ultrasağ «Almaniya uğrunda» hərəkatın nümayəndələrinə Berlində Məhəmməd Peyğəmbərin karikaturalarını nümayiş etdirə biləcəkləri barədə müvafiq qərar çıxardır [4]. ABŞ-da istehsal olunan və Məhəmməd Peyğəmbərin ələ salındığı "Müsəlmanların məsumluğu" filmi İnternet şəbəkəsində yerləşdirilir.

Zənnimizcə, Avropa KİV-lərinin bu cür heç bir əndazəyə sığmayan davranışlarını Avropanın sürətlə müsəlmanlaşmasına qısqanclıqla yanaşmanın nəticəsi kimi də nəzərdən keçirmək olar. Dünya ölkələrində tolerantlıqla bağlı monitoinqlər keçirib vəziyyəti qiymətləndirənlərin, başqa millətlərə və dövlətlərə demokratiya dərsi keçənlərin özlərini bu cür aparmaları yalnız təəssüf və onların obyektivliyinə və demokratikliklərinə inamsızlıq hissi doğurur.

Əlbəttə, vəziyyət bu cür birtərəfli – "bir qapıya oyun" şəklində qala bilməzdi. Müsəlman dünyasının cavabı özünü çox gözlətmir. On bir İslam ölkəsinin xarici işlər nazirlikləri Danimarka hökumətindən karikaturalara görə

üzr istəməyi tələb edirlər (19 oktyabr 2005-ci il). İslam Əməkdaşlıq Təşkilatı (2011-ci ilə qədər İslam Konfransı Təşkilatı) 57 dövlət başçısının iştirak etdiyi növbədənkənar sammitində (6 dekabr 2005-ci il) karikaturalarla bağlı müzakirələr keçirir və Danimarka hökumətindən karikaturalara görə məsul şəxsləri mühakimə etməyi tələb edir (18 yanvar 2006-cı il). Ərəb Dövlətləri Liqası Danimarka hökumətinə ciddi etirazını bildirir (29 dekabr 2005-ci il). İslam Əməkdaşlıq Təşkilatı dini əqidələrin təhqir olunmasını qadağan edən Qətnamə layihəsini BMT-nin müzakirəsinə təqdim edir. Bu müddət ərzində bəzi ərəb dövlətləri Danimarka hökumətinin fəaliyyətsizliynə görə bu ölkədən öz səfirlərini geri çağırır, öz ölkələrindən isə Danimarkanın səfirlərini çıxarır, mallarını boykot edirlər.

Yalnız Norveç hökuməti **"Magazinet"** qəzetində karikaturaların dərcinə görə üzr istəyir, lakin eyni zamanda azad mətbuat üzərində hökmü olmadığını bildirir (26 yanvar 2006-cı il). Danimarkanın Səudyyə Ərəbistanındakı səfiri American AP-TV-yə verdiyi müsahibəsində **"Jyllands-Postens"** qəzetini islamı zəif bildiyinə görə tənqid edir (28 yanvar 2006-cı il). "Jyllands-Postens" qəzeti özü isə danimarka və ərəb dillərində - karikaturaları çap etdiyinə görə yox, islam ictimaiyyətinin hisslərinə etinasızlığına görə üzr istəyir (30 yanvar 2007-ci il).

Bütün bu proseslərə, bir neçə qəzetin Məhəmməd Peyğəmbərin karikaturalarını çap etmələri dörd qitənin 100-dən çox dövlətinin və bu ölkələrdə yaşayan millətlərin, hətta bir ölkənin vətəndaşları arasındakı münasibətləri son həddə qədər gərginləşdirdiyinə baxmayaraq, Avropa qəzetləri 2008-ci ilin yanvar-fevral aylarında Danimarka və Norveç qəzetləri ilə həmrəylik nümayiş etdirmək haqqında qərarlar qəbul edirlər.

Müsəlman ölkələrinin aparıcı mətbuat orqanları Qərbli həmkarlarının bu cür qərarlarının KİV-in fəaliyyətinin təməl prinsiplərinə, jurnalistikanın daxili qanunauyğunluqlarına, məhz ilk növbədə Qərb jurnalistlərinin təşəbbüsü ilə qəbul olunmuş jurnalistikanın etik normalarına, davranış kodeksinə və s. zidd oduğunu xatırladırlar.

Adətən, "söz azadlığı" pərdəsinə bürünərək öz çıxışları ilə ciddi qarşıdurmalar yaradan (o cümlədən dinlərarası münasibətlərdə), sonra da heç nə olmamış kimi üzr istəməklə işini bitmiş hesab edən Qərb mətbuatı yenə bu metod-dan isrifadə edir. "Эхо Москвы" radiosu 2010-cu il martın 10-da "Politiken" jur-nalının Məhəmməd Peyğəmbərin karikaturalarını çap etdiyinə görə oxucularından (jurnal 90 min abunəçisini itirmişdi) üzr istədiyi barədə məlumat yaymışdır.

Fransada Məhəmməd Peyğəmbərin karikaturalarını ilk nəşr edən "Charlie Hebdo" jurnalının Parisdəki ofisi yandırıldıqdan və üzvləri, əsasən də qurucusu Stefan Şarbonyenin (ləqəbi Şarbo) ünvanına hədələr səsləndikdən sonra jurnalın fəlsəfə və islam dini məsələləri üzrə mütəxəssisi, professor Abdenur Bidarla "Məhəmməd Peyğəmbəri yançaqları açıq göstərən karikatura məncə gülməli deyildi. Amma onun "axmaqlar tərəfindən sevilmək çətin məsələdir"

dediyi karikaturasına çox güldüm" başlıqlı müsahibədə jurnalla əhali arasında yaranmış gərginliyn yumşaldılmasna cəhdlər göstərilir (2 yanvar 2013-cü il).

Gələcəkdə əhalinin milli tərkibi haqqında proqnozlar da vəziyyəti Avropanın xeyrinə dəyişdirmir. İnkişaf etmiş ölkələrdə, o cümlədən, Avropa ölkələrində yerli əhalinin sayının 2,3 dəfə azalacağı proqnozlaşdırılır. BMT-nin Sosial Məsələlər və İqtisadiyyat Departamentinin xüsusi məruzəsində (noyabr 2004, Brüssel) göstərilir ki, 2000-2050-ci illərdə Avropanın əhalisi 96 mln. nəfər azalacaqdır. Məsələn, 1995-2000-ci illərdə Avropanın əhalisi 4,4 mln. nəfər azalmışdır. Avropa ölkələri bu boşluğu miqrantların hesabına doldururlar. Doyche Presse-Agentur İnformasiya Agentliyinin 2004-cü ilin noyabr ayında verdiyi məlumata görə, həmin müddətdə Avropa 5 mln. miqrant qəbul etmişdir. Miqrantların əksəriyyətini müsəlmanlar təşkil edir ("Respublika" qəzeti, 19 noyabr 2004-cü il). Bütövlükdə isə təxminən 455 milyonluq Avropa əhalisinin 15 milyondan artığını müsəlmanlar təşkil edir və bu rəqəm ildən-ilə artmaqdadır.

Latviya Universitetinin professoru, şərqşünas Leon Tayvans Baltkom "93,5" radiostansiyasına müsahibəsində (8 avqust 2011-ci il) Avropanın müsəlmanlaşmasının qaçılmaz olduğunu və bu prosesin artıq üç istiqamətdə - Qitənin demoqrafik, iqtisadi və dini məskunlaşması istiqamətlərində getdiyini və əgər sərhədlər açılarsa, 20 ildən sonra Avropanın müsəlman Avropası olacağına əmin olduğunu bildirir.

Bununla bərabər, bəzi müsəlman ölkələrinin rəsmi dairələri Qərbdə islamofobiya əhval-ruhiyyəsinin güclənməsi və bu cəmiyyətlərdə müsəlman azlıqlarının hüquqlarının pozulması hallarının artması barədə KİV-lərdə hesabatlar çap etdirirlər. Bu hesabatlarda Avropa ölkələrində məscidlərin tikilməsinə, islam saytlarının açılmasına qarşı atılan addımlar, müsəlmanların müqəddəs ziyarətgahlarına hücumların edilməsi və onların murdarlanması Qərbdə, əsasən də ABŞ, İngiltərə, İsveçrə, Fransa, Avstriya, Avstraliya və s. ölkələrdə insan hüquqlarının pozulması kimi qiymətləndirilir. Həmçinin bu hesabatlarda Qərb ölkələrində, o cümlədən, Belçika və Fransada hicabı qadağan edən qərar və qanunların qəbul edilməsi pislənilir. KİV-lər isə yerli əhalidə islama və islam təşkilatlarına nifrət əhval-ruhiyyəsi formalaşdırırlar [7].

Avropa əhalisinin dini və milli tərkibinin 2030-cu, xüsusilə də 2050-ci ilə qədər xeyli dəyişəcəyi barədə verilən proqnozlar, Məhəmməd Peyğəmbərin bombaya oxşayan əmmamə ilə təsvirini yaradan Danimarkalı karikaturaçı rəssam Kurt Vestergoordun 2010-cu il sentyabrın 8-də Potsdam KİV mükafatı, 2010-cu il oktyabrın 9-da isə "Kütləvi informasiya vasitələrinin gələcəyi və azadlığı uğrunda" Leypsiq mükafatı ilə təltif edilməsi, 2012-ci ildə bu mükafatın (30 min yevro) Kurt Vestergoordla əfqan jurnalisti Səid Yaqub İbrahimi və bolqar reportyoru Assen Yordanov arasında bölüşdürülməsi və bu təltifetmə mərasimlərinin birincisində Almaniyanın kansleri Angela Merkelin iştirakı qarşıda daha kəskin "KİV-lərarası müharibələr"in olacağından xəbər verir.

İstənilən halda, Məhəmməd Peyğəmbərin karikaturalarının Qərb mətbua-

tında çapının dövlətlərarası və millətlərarası əlaqələrə, beynəlxalq münasibətlərə vurduğu zərbənin böyük bir səhv və çox təhlükəli olduğunu anlamağa, bu məsələlərin işıqlandırılmasına KİV-ləri gələcəkdə daha məsuliyyətlə və qarşılıqlı hörmət hissi ilə yanaşmaq barədə fikirləşməyə vadar etməlidir.

Həyat milli və dini məsələlərin „problemsizliyi“ barədə inancların illüziyalardan ibarət oldğunu dəfələrlə sübut etmişdir. Dini motivlər əsasında yarandığı iddia edilən Dağlıq Qarabağ problemini rus şovinizmi tərəfindən Azərbaycan xalqının gələcəyi altına qoyulmuş gec partlayan bomba adlandırmaq olar. Bunu həmçinin millətlərarası münasibətlərdə yaranmış ziddiyyətlərlə, sağlam düşüncələrin yerli "millətçilik" kimi qiymətləndirilməsi tendensiyası ilə də əsaslandırmaq olar. Amma bu təzahürləri necə adlandırsaq da, necə izah etsək də, bütün bunların baş verməsində KİV-in işində boşluqların olmasını açıq etiraf etməliyik.

Zənnimizcə, istənilən ölkənin milli problemlərin həllinə cəlb olunmuş vətəndaşlarının yarı yolda büdrəmələri də "qaynar başda ağıl olmaz" məntiqi ilə izah olunur. Hazırda, hətta müxtəlif sosial-siyasi qüvvələrə məxsus "mübarizlər" özlərinin məkrli məqsədlərinə nail olmaq üçün "milli və dini rəngə" boyanırlar. Onların cərgələrində olan separatçı, ekstremist, populist ünsürlər kütləvi şüura təsir etmək üçün milli problematikadan məharətlə istifadə etməyi, hətta nəinki kütləvi şüura, həmçinin kütləvi emosiyaya təsir etməyi də bacarırlar. Bu işdə real vaxt rejimində informasiyanın alınması, hazırlanması və yayılması sahəsində geniş imkanlar yaradan yeni informasiya texnologiyaları və onların tətbiq edildiyi KİV-lər özlərindən asılı olmayaraq, "maraqlı tərəfin" portnyoruna çevrilirlər. Adətən, bu səpkidən olan materiallarda (əsasən video) tamaşaçıya psixoekoloji təsir göstərmək məqsədi ilə neyrolinqvistik proqramlaşdırmadan geniş istifadə olunur.

Bütün bunları nəzərə alaraq, milli və dini münasibətlərin tənzimlənməsində KİV-in yerinin və rolunun, bu sosial-siyasi institutlar arasındakı qarşılıqlı təsir problemlərinin, millətlərarası və dinlərarası münasibətlərin kəskinləşməsi şəraitində KİV-in fəaliyyətinin və səmərəliliyinin yüksəldilməsi problemlərinin daha geniş araşdırılmasını vacib hesab edirik.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan, 2005, 752 s.
2. İnsan hüquqları. Beynəlxalq müqavilələr toplusu. Bakı: Azərbaycan, 1998, 336 s.
3. Mazanlı İ.A. Söz azadlığı və informasiya təhlükəsizliyi: milli və beynəlxalq təminat. Terminlər və anlayışlar. Bakı: UniPrint, 2005, 160 s.
4. http://proses.az/?m=xeber&id=2797

**Rus dilində**

5. Шевчук Д.А. Мировая экономика. http://www.e-reading.mobi/chapter.php/143271/3/Shevchuk_-_Mirovaya_ekonomika.html

6. http://ru.wikipedia.org/wiki/кариктурный_ скандал_ (2005-2006)
7. http://obozrevatel.com/abroad/evropa-mozhet-stat-musulmanskoj-za-20-let-ekspert.htm
**İngilis dilində**
8. Aron R. Paix et Guerre entre les nations. Paris, 1984, p. 17.
9. Caporaso J. Dependence, Dependecy and Power in the Global System: A Structural and Behavioral Analisis// International Organization. 1979. Mi 10.
10. Synger D . (ed). Quantitative Politics: Insights and Evidence. N.Y., 1978.

## СВОБОДА ЧЕЛОВЕКА:
## КОНФЛИКТЫ МЕЖДУ РЕЛИГИЙ И МЕЖДУ СМИ

**И.А.МАЗАНЛЫ**

### РЕЗЮМЕ

В статье на основе анализа материалов, посвяшенных публикациям карикатур Пророка Мухаммеда в СМИ западных стран, рассматривается двоякая роль СМИ (структивная и деструктивная) в сфере межгосударственных и межрелигиозных отношений. В статье разработаны некоторые научные и практические рекомендации для совершенствования деятельности СМИ в этой области.

**Ключевые слова:** пророк, религия, карикатура, межгосударственные, межрелигиозные, отношения, СМИ

## HUMAN FREEDOMS:
## CONFLICTS AMONG THE RELIGIONS AND AMONG MASS-MEDIA

**I.A.MAZANLI**

### SUMMARY

The article, based on the analysis of the published caricatures of prophet Mahammad in the Mass Media of western countries, considers the double-character of Mass Media (structive and destructive) in the sphere of interstate and interreligious relations. The author makes a number of scientific and practical recommendations for perfection of the activity of Mass Media in this sphere.

**Key words:** prophet, religious, caricature, interstate, interreligious, relation, Mass Media